**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2025-ci il ərzində beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlər barədə**

# HESABAT

2025-ci il ərzində Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq sənədlərinin hazırlanması və razılaşdırılması, beynəlxalq və regional iqtisadi təşkilatlar, həmçinin beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi, eləcə də qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və təşviqi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

7-11 aprel və 12-16 may 2025-ci il tarixlərində Türkiyə Respublikasının Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyinin Daşınmaz Əmlakın Qeydiyyatı və Kadastrı Baş Direktorluğunun nümayəndə heyətinin Bakı şəhərinə səfəri çərçivəsində Əmlak Məsələləri Dövlət Xidmətinin (ƏMDX) nümayəndələri ilə görüşlər keçirilmişdir. Görüşlər zamanı daşınmaz əmlakın kadastrı və reyestri, geodeziya və xəritəçəkmə, daşınmaz əmlakın və torpaqların idarə olunması, həmçinin ünvan reyestri sahələrində təcrübə və məlumat mübadiləsi həyata keçirilmiş, eyni zamanda Azərbaycanda 3D kadastr sisteminin tətbiqi üzrə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində geniş müzakirələr aparılmışdır.

11 aprel 2025-ci il tarixində Moldovanın Dövlət Əmlak Agentliyinin direktoru ilə Əmlak Məsələləri Dövlət Xidmətinin nümayəndələri arasında keçirilən görüşdə dövlət əmlakının idarə olunması və özəlləşdirilməsi, torpaqlardan səmərəli istifadə sahələrində tərəflərin təcrübə mübadiləsi həyata keçirilmiş, həmçinin gələcək əməkdaşlıq perspektivləri ətrafında müzakirələr aparılmışdır.

15-17 aprel 2025-ci il tarixlərində Rusiya Federasiyasının Dövlət Qeydiyyat, Kadastr və Kartoqrafiya Federal Xidmətinin (Rosreestr) nümayəndə heyətinin Bakı şəhərinə səfəri çərçivəsində Əmlak Məsələləri Dövlət Xidmətində görüşlər keçirilmişdir. Görüşlər zamanı daşınmaz əmlakın kadastrı və reyestri, geodeziya və xəritəçəkmə, daşınmaz əmlakın və torpaqların idarə olunması sahələrində təcrübə və məlumat mübadiləsi həyata keçirilmiş, həmçinin torpaq sahələrinin və iri tikinti obyektlərinin kadastr qiymətləndirilməsi metodları üzrə fikir mübadiləsi aparılmışdır. Səfər çərçivəsində həmçinin Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İqtisadiyyat Nazirliyində keçirilən görüşlərdə Milli Məkan Məlumatları İnfrastrukturunun inkişafı və bu sahədə əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında geniş müzakirələr aparılmışdır.

22 aprel 2025-ci il tarixində ƏMDX ilə İsrail Dövlətinin Torpaq İdarəsinin nümayəndələri arasında torpaq münasibətləri, dövlət torpaqlarının idarə olunması və qeydiyyatı sahələrində əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə onlayn görüş keçirilmişdir. Görüş zamanı qarşı tərəf İsrail Dövlətinin Torpaq İdarəsinin fəaliyyət istiqamətləri, torpaq idarəçiliyi sahəsində tətbiq olunan texnologiya və innovasiyalar, torpaqların qeydiyyatı prosesi və kadastr sistemi barədə təqdimatla çıxış etmişdir.

24 aprel 2025-ci il tarixində MipMap Texnologiyalar şirkətinin fəaliyyət istiqamətlərinə daxil olan coğrafi informasiya sistemləri (CİS), kadastr, fotoqrammetriya, məsafədən

zondlama, çoxölçülü rəqəmsal əkizlər, ağıllı şəhər texnologiyaları, 3D modelləşmə, məkan əsaslı həllər və rəqəmsal xəritələşmə sahələrində əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə Əmlak Məsələləri Dövlət Xidmətində görüş keçirilmişdir. Görüş zamanı qeyd olunan istiqamətlər üzrə qarşılıqlı əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

30 aprel 2025-ci il tarixində ƏMDX ilə Xorvatiya Respublikasının Dövlət Geodeziya İdarəsinin nümayəndələri arasında daşınmaz əmlakın kadastrı, geodeziya və dövlət torpaqlarının idarə olunması sahələrində ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə onlayn görüş keçirilmişdir. Görüş zamanı qarşı tərəf Xorvatiya Respublikasının Dövlət Geodeziya İdarəsinin strukturu, fəaliyyət istiqamətləri və hüquqi bazası, həmçinin texnologiya və innovasiya sahəsində tətbiq olunan yeniliklər, geodeziya və torpaq kadastrı üzrə həyata keçirilən işlər barədə təqdimatla çıxış etmişdir. Keçirilmiş görüşün davamı olaraq, 6-12 iyul 2025-ci il tarixlərində ƏMDX nümayəndə heyəti Xorvatiya Respublikasının Dövlət Geodeziya İdarəsi ilə əməkdaşlıq çərçivəsində Zaqreb, Koprivniça və Çakovets şəhərlərinə səfər etmişdir. Səfər çərçivəsində daşınmaz əmlakın vahid dövlət kadastrı, dövlət torpaqlarının idarə olunması və geodeziya sahələrində təcrübə və məlumat mübadiləsi həyata keçirilmişdir.

5 iyun 2025-ci il tarixində Dünya Bankı ilə mümkün əməkdaşlıq istiqamətlərinin müzakirəsi məqsədilə ƏMDX-nin inzibati binasında Dünya Bankının nümayəndələri ilə görüş keçirilmişdir. Görüş zamanı kənd təsərrüfatı sahəsində rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə torpaqların konsolidasiyası üzrə pilot ərazilərin müəyyən edilməsi məsələsi müzakirə edilmişdir. Bununla yanaşı, “Torpaqların konsolidasiyası haqqında” Azərbaycan Respublikasının Qanun layihəsi və “Azərbaycan Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası və torpaq bankçılığı Strategiyası” layihəsi üzrə də fikir mübadiləsi aparılmışdır.

11-13 iyun 2025-ci il tarixlərində Tacikistan Respublikasının Dövlət Torpaq İdarəetmə və Geodeziya Komitəsinin nümayəndə heyətinin Bakı şəhərinə səfəri çərçivəsində Əmlak Məsələləri Dövlət Xidmətində görüşlər keçirilmişdir. Görüş zamanı daşınmaz əmlakın kadastrı və reyestri, geodeziya və xəritəçəkmə, həmçinin daşınmaz əmlakın və torpaqların idarə olunması sahələrində təcrübə və məlumat mübadiləsi həyata keçirilmişdir. Bununla yanaşı, tərəflər arasında müvafiq sahələr üzrə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri müzakirələr aparılmışdır.

25 avqust – 4 sentyabr 2025-ci il, 22 noyabr – 4 dekabr 2025-ci il tarixlərində Koreya Respublikasının Torpaq, İnfrastruktur və Nəqliyyat Nazirliyi nəzdində fəaliyyət göstərən Koreya Torpaq və Geoməkan İnformatika Korporasiyasının (LX) və “Wavus” şirkətinin nümayəndə heyətinin Bakıya səfəri çərçivəsində Koreya nümayəndə heyəti ilə ƏMDX nümayəndələri arasında görüşlər keçirilmişdir. Səfərlərin məqsədi kadastr, daşınmaz əmlakın reyestri, geodeziya, rəqəmsal xəritəçəkmə və əmlak məlumatlarının idarə olunması sahələrində əməkdaşlıq imkanlarının öyrənilməsi, həmçinin Azərbaycanda NSDI (Milli Məkan Məlumatları İnfrastrukturu) və DƏRKİS (Daşınmaz Əmlakın Reyestri və Kadastrı İnformasiya Sistemi) platformalarının yaradılması istiqamətində aparılan işlərin

dəstəklənməsi olmuşdur. Görüşlər zamanı məlumat və rəqəmsal idarəetmə strategiyası, həmçinin gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

2025-ci il ərzində Əmlak Məsələləri Dövlət Xidmətinin əməkdaşları bir sıra beynəlxalq tədbirlərdə və işgüzar səfərlərdə iştirak etmişlər. Belə ki, 1-5 iyun 2025-ci il tarixlərində Özbəkistan Respublikasının Daşkənd şəhərinə səfər çərçivəsində Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Kadastr Agentliyi ilə görüş keçirilmiş, daşınmaz əmlakın dövlət kadastrı və reyestrinin aparılması, dövlət torpaqlarının idarə olunması və geodeziya sahələrində təcrübə mübadiləsi aparılmışdır.

Həmçinin, 11 sentyabr 2025-ci il tarixində Koreya Respublikasının Qoyanq şəhərində keçirilmiş 11-ci “Avrasiya Məkan Məlumat İnfrastrukturu” konfransında, “K-GEO Festa 2025” tədbirində və BMT-nin Asiya və Sakit okean üzrə Qlobal Geoməkan Məlumatlarının İdarəolunması üzrə Ekspertlər Komitəsinin 14-cü plenar iclasında Xidmət əməkdaşları iştirak etmişlər.

Eyni zamanda, 5-9 oktyabr 2025-ci il tarixlərində Daşınmaz əmlakın dövlət reyestrinin və kadastrının aparılması, eləcə də dövlət torpaqlarının idarə edilməsi sahəsində təcrübə və məlumat mübadiləsi həyata keçirilməsi məqsədilə Türkiyə Respublikasının Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyinin Daşınmaz Əmlakın Qeydiyyatı və Kadastrı Baş Direktorluğuna işgüzar səfər edilmişdir.

5 dekabr 2025-ci il tarixində Türk Dövlətləri Təşkilatının “Xəritəçilik İşçi Qrupu”nun Bakıda keçirilən növbəti iclası çərçivəsində ölkəmizə səfər etmiş Özbəkistan və Qırğızıstan nümayəndə heyətləri ilə Əmlak Məsələləri Dövlət Xidmətində görüşlər keçirilmişdir. Görüşlər zamanı daşınmaz əmlakın reyestri və kadastrı, həmçinin geodeziya sahələrində təcrübə və məlumat mübadiləsi həyata keçirilmiş, bu istiqamətlər üzrə görülən işlər, göstərilən elektron xidmətlər və tətbiq olunan innovativ həllər barədə məlumat verilmişdir. Tərəflər daşınmaz əmlakın reyestri, kadastrı və geodeziya sahələrində birgə təşəbbüslər və layihələr, o cümlədən Milli Məkan Məlumatları İnfrastrukturunun formalaşdırılması məsələləri üzrə fikir mübadiləsi aparmış, gələcək əməkdaşlıq perspektivlərini nəzərdən keçirmişlər.